**AZƏRBAYCAN RESPUBLİKASI**

Əlyazması hüququnda

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN TEATRINDA REPERTUAR PROBLEMİ (1991-2015-Cİ İLLƏR)

| | |
|---|---|
| İxtisas: | 6212.01 - Teatr sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı**:** | **Əlləz Səlimxan oğlu Əhmədov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Teatr, kino və televiziya" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: **Vidadi Ramiz oğlu Qafarov**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Rəsmi opponentlər: **Gülşad Eynulla qızı Baxşıyeva**
Əməkdar artist, professor
**Əliqismət Hümmət oğlu Lalayev**
Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Şəhla Hüseyn qızı Əliyeva**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.35 - Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Əməkdar incəsənət xadimi,
sənətşünaslıq elmləri doktoru, professor
______________________ **Məryəm Əli qızı Əlizadə**

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent
______________________ **Gülnarə Kərim qızı Hüseynova**

Elmi seminarın sədri: Əməkdar incəsənət xadimi,
sənətşünaslıq elmləri doktoru, professor
______________________ **Məryəm Əli qızı Əlizadə**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Repertuar teatrın aynasıdır, - deyirlər. Sözsüz ki, əsrlərin sınağından çıxmış bu fikrin sübuta ehtiyacı yoxdur. Teatrların tarixini, onun ideya-bədii istiqamətini, yaradıcılıq imkanlarını, uğur və çatışmazlıqlarını və s. öyrənmək baxımından repertuar ən mühüm mənbədir.

Truppalar repertuar axtarışlarını öz yaradıcılıq imkanlarına və konsepsiyalarına uyğun olaraq müəyyən edirlər. Teatrların repertuar siyasətini nəzərdən keçirməklə dövrün teatr mühitini də aşkara çıxarmaq mümkündür.

Müstəqillik illərindən əvvəl Azərbaycan teatrının repertuarının formalaşmasında dominant rol Akademik Milli Dram Teatrının üzərinə düşürdü. Ölkəmizdə fəaliyyət göstərən əksər truppalar öz repertuar siyasətini demək olar ki, ana teatrımızın repertuarına uyğun müəyyən edirdilər.

Sovetlər birliyinin dağılması, xalqımızın yenidən müstəqilliyini bərqərar etməsi teatr sənəti qarşısında yeni imkanlar açdı ki, bu da teatrın bədii-təşkilati məsələlərində, həmçinin, repertuar siyasətinin konseptual olaraq dəyişməsində özünü göstərdi.

Milli teatrımızın tarixində yeni mərhələnin başlanması, həm də yeni, alternativ teatrların yaranması ilə müşayiət olundu. Fərqli konsepsiya və səhnə estetikası ilə meydana gələn yeni teatrlar həm də fərqli repertuar və tamaşaçı auditoriyası demək idi. Yeni truppalar zamanın tələbi ilə doğulduğundan onların fəaliyyəti dövrlə daha çox səsləşirdi. Müstəqillik illərində yeni yaranan dövlət və bələdiyyə (Dövlət Gənclər Teatrı, Yuğ Teatrı, Bakı Kamera Teatrı, Bakı Bələdiyyə Teatrı, Pantomima Teatrı, Bakı Marionet Teatrı) teatrları ilə yanaşı, özəl truppaların və teatr-studiyalarının ("Meydan", "Arif" Satira, "Bəşir", "Tənqid-Təbliğ", "İlham" miniatür, "İbrus", "Sönməyən ulduzlar", "Əhli-Beyt", "Araz", "Zəfər") yaradıcılıq axtarışları, xüsusən də repertuar siyasəti bunu əyani şəkildə göstərirdi.

Beləliklə, ölkəmiz müstəqillik qazandıqdan sonra həm mövcud dövlət teatrlarının repertuar siyasətini yenidən qurması, həm də fərqli

estetikaya malik teatrların meydana gəlməsi respublikada teatr şəbəkəsini genişləndirməklə eyni zamanda, repertuarın yenilənməsinə və zənginləşməsinə münbit şərait yaratdı.

Bu prosesdə 1992-2015-ci illərdə Bakıda və bölgələrdə keçirilən yerli və beynəlxalq teatr festivallarının, xarici festival və qastrolların rolunu da qeyd etmək lazımdır. Belə festival və qastrolların sayəsində milli teatrımızın dünya teatr prosesi ilə daha yaxından tanış olmaq, bu prosesə qoşulmaq, ondan faydalanmaq imkanları artdı ki, bu, xüsusən də repertuarda öz əksini tapdı.

Məhz bu baxımdan, müstəqillik dövrü Azərbaycan teatrının repertuarının tədqiqata cəlb olunması xüsusi aktuallıq kəsb edir. Burada mövzunun əhəmiyyətini və sözügedən dövrdə milli teatrımızın repertuarının indiyədək kompleks halında, sistemli şəkildə araşdırılmadığını diqqətə çatdırsaq, mövzunun aktuallığı daha qabarıq üzə çıxar.

Qeyd olunduğu kimi, "Müstəqillik dövrü Azərbaycan teatrında repertuar problemi (1991-2015-ci illər)" mövzusu milli teatrşünaslıq elmi üçün mühüm əhəmiyyət daşısa da bu günədək əsaslı tədqiqata cəlb edilməmiş, kompleks halında araşdırılmamışdır. Buna baxmayaraq, tədqiq edilən dövr ərzində repertuarda yer alan tamaşalar barəsində dövri mətbuatda dərc olunan məqalə və resenziyalar mövzu ilə bağlı dəyərli mənbələr kimi böyük əhəmiyyətə malikdir.

Bununla yanaşı, milli sənətşünaslığımızı zənginləşdirən AMEA-nın müxbir üzvü, professor C.Cəfərov [1], Xalq artisti, sənətşünaslıq doktoru, professor M.Məmmədov[2], AMEA-nın müxbir

---

[1]Cəfərov, C.H. Azərbaycan Dram teatrı / C.H.Cəfərov. – Bakı: Azərnəş, - 1959. - 417 s.; Cəfərov, C.H. Azərbaycan teatrı (1873-1973) / C.H.Cəfərov. – Bakı: Zərdabi Nəşr MMC, - 2023. - 440 s.

[2] Məmmədov, M.Ə. Azəri dramaturgiyasının estetik problemləri / M.Ə.Məmmədov. – Bakı: Azərnəşr, - 1968. - 384 s.; Məmmədov, M. Ə. Teatrlar, aktyorlar, tamaşalar / M.Ə.Məmmədov. – Bakı: Azərnəşr, - 1966. - 220 s.; Məmmədov, M.Ə. Rejissor sənəti / M.Ə.Məmmədov. - Bakı: Maarif, - 1971. – 190 s.;

üzvü, professor İ.Kərimov [3], sənətşünaslıq doktoru, professor M.Allahverdiyev [4], sənətşünaslıq doktoru, professor İ.İsrafilov [5], sənətşünaslıq doktoru, professor İ.Rəhimli[6], sənətşünaslıq namizədi Ə.Əliyeva [7], sənətşünaslıq namizədi A.Səfərova [8], sənətşünaslıq

---

[3]Kərimov, İ.S. Ə.Haqverdiyev və teatr / İ.S.Kərimov. - Bakı: Elm, - 1975. - 172 s.; Kərimov, İ.S. N.Nərimanov və teatr / İ.S.Kərimov. - Bakı: Elm, - 1983. - 102 s.; Kərimov, İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri / İ.S.Kərimov. - Bakı: Maarif, - 2002. - 575 s.; Kərimov, İ.S. Azərbaycan teatr tarixi. IIIclddə. I. c. / İ.S.Kərimov. - Bakı: Elm, - 2008. - 724 s.; Kərimov, İ.S. Azərbaycan-Türkiyə teatr əlaqələri / İ.S.Kərimov. - Bakı: Nağıl evi, - 2000. - 200 s.; Kərimov, İ.S. Bakı Bələdiyyə Teatrı / İ.S.Kərimov. – Bakı: ÇİNAR-ÇAP, - 2008. - 464 s.

[4] Allahverdiyev, M.Q. Müasir teatrda ənənə və novatorluq məsələləri / M.Q.Allahverdiyev. - Bakı: Azərnəşr, - 1974. - 100 s.; Allahverdiyev, M.Q. M.A.Əliyev / M.Q.Allahverdiyev. - Monoqrafiya B., İşıq, - 1988. - 120 s.; Allahverdiyev, M.Q. Ələsgər Ələkbərov / M.Q.Allahverdiyev. – Bakı: Elm, - 1972. - 234s.; Allahverdiyev, M.Q. Cəfər Cabbarlı və müasirlik / M.Q.Allahverdiyev. – Bakı: Az. Bilik cəmiyyəti, - 1979. - 66 s.; Allahverdiyev, M.Q. Azərbaycan xalq teatr tarixi / M.Q.Allahverdiyev. - Bakı: Maarif, - 1978. - 236 s.

[5] İsrafilov, İ.R. Azərbaycan milli rejissor sənətinin poetikası / İ.R.İsrafilov. - Bakı: Elm və İsmayıl NPM, - 2001. -284 s.; İsrafilov, İ.R. Zaman, rejissor, poetika / İ.R.İsrafilov. - Bakı: Mars-Print, - 1999. - 272 s.; İsrafilov, İ.R. Adil İsgəndərovun teatrı / İ.R.İsrafilov. – Bakı: Mars-Print, - 2001. - 205 s.; İsrafilov, İ.R. Mehdi Məmmədovun rejissor sənəti / İ.R.İsrafilov. – Bakı: Mars-Print, - 2002. – 188s.; İsrafilov, İ.R. Tofiq Kazımovun rejissor dərsləri / İ.R.İsrafilov. – Bakı: Aspoliqraf, - 2013. - 232 s.; İsrafilov, İ.R. Teatr haqqında söhbətlər / İ.R.İsrafilov. - Bakı: Xəzər, - 2020. - 230 s.

[6]Rəhimli, İ.Ə. Dramaturgiya və teatr / İ.Ə.Rəhimli. - Bakı: İşıq, - 1984. - 148 s.; Rəhimli, İ.Ə. Azərbaycan teatrının estetik prinsipləri / İ.Ə.Rəhimli. – Bakı: Çaşıoğlu, - 2004. - 280 s.; Rəhimli, İ.Ə. Sənətdə keçən ömür / İ.Ə.Rəhimli. – Bakı: Gənclik, - 1992. - 328 s.; Rəhimli, İ.Ə. Azərbaycan teatr tarixi. Beş clddə, 3-cü cild / İ.Ə.Rəhimli. – Bakı: Şərq-Qərb, - 2017. - 608 s.; Rəhimli, İ.Ə. Zaman-zaman içində / İ.Ə.Rəhimli. – Bakı: Kitab aləmi NPM, - 2010. - 516 s.

[7]Əliyeva, Ə.Ə. M.F.Axundov və teatr / Ə.Ə.Əliyeva. – Bakı: AEA, - 1966. - 108 s.; Əliyeva, Ə.Ə. N.Vəzirov və teatr / Ə.Ə.Əliyeva. – Bakı: Azərnəşr, - 1967. - 214 s.; Əliyeva, Ə.Ə. Rus dramaturgiyası azərbaycan səhnəsində / Ə.Ə.Əliyeva. - B., Azərnəşr, - 1958. - 107 s.

[8]Сафарова, А.Театр и время. / А.Сафарова. - Баку, Элм, - 1971.–126с.

namizədi T.Yusifbəyli[9], sənətşünaslıq namizədi T.Təhmasib[10], filologiya elmləri doktoru, professor A.Dadaşov[11], sənətşünaslıq doktoru, professor M.Əlizadə[12], professor A.Talıbzadə[13], sənətşünaslıq doktoru, professor Ə.Vəliyev[14], sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent F.Cəlilova[15], sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent R.Mustafayeva[16], sənətşünaslıq üzrə fəlsəfə doktoru E.Cəfərov[17] və b. müəlliflərin monoqrafiya və dissertasiyaları birbaşa repertuar probleminə həsr olunmasalar da mövzuya bu və ya digər dərəcədə toxunan dəyərli tədqiqatlar kimi dissertasiya üçün elmi baza rolunu oynamışlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti**ni Azərbaycan teatrının 1991-2015-ci illər ərzində keçdiyi yaradıcılıq yolu, **predmeti**ni isə həmin dövr Azərbaycan teatrının repertuar siyasəti təşkil edir.

---

[9] Юсуфбейли, Т.Шекспир на сцене Азербайджанского Гоосударственного Академического ордена Трудового Красного Знамени Драматического Театра им. М.Азизбекова. /Юсуфбейли Т. – Баку: АТО, 1964. - 189 с.

[10] Təhmasib, T. R. Hüseyn Cavid və teatr / T.R.Təhmasib. - Bakı: İşıq, - 1988. - 164 s.

[11] Dadaşov, A.Ə. Müasir Azərbaycan dramaturgiyası / A.Ə.Dadaşov. – Bakı: Elm və təhsil, - 2012. - 304 s.; Dadaşov, A.Ə. Rejissurada üslub problemləri / A.Ə.Dadaşov. – Bakı: Elm və Təhsil, - 2010. - 240 s.

[12] Əlizadə, M.Ə. Dördüncü ölçünün rəngləri / M.Ə.Əlizadə. - Bakı: E.L, - 2008. - 452 s.; Əlizadə, M.Ə. Elçinin teatr dünyası / M.Ə.Əlizadə. – Bakı: Təhsil, - 2014. - 310 s.; Əlizadə, M.Ə. Teatr: seyr və sehr... / M.Ə.Əlizadə. - Bakı: Elm, - 1998. - 252 s.

[13] Talıbzadə, A.A. Mehdi müəmması və ya sənətdə konseptual hamletizm / A.A.Talıbzadə. – Bakı: Elm və Təhsil, - 2009. - 384 s.

[14] Vəliyev, Ə.M. Əqidə, ruh və teatr / Ə.M.Vəliyev. - Bakı: Stil Matbaacilik, - 2009. - 240 s.

[15] Cəlilova, F.M. Yuğ teatrının poetikası və dünya teatr sistemləri / F.M.Cəlilova. – Bakı: Kansler, - 2018. - 178 s.

[16] Mustafayeva, R.Ş. Tərcümə əsərləri və milli teatr estetikası / R.Ş.Mustafayeva. – Bakı: Nurlan, – 2003. - 155 s.

[17] Cəfərov, E.N. Vaqif İbrahimoğlu rejissurası və konseptual teatr poetikası: / sənətş. üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2019. – 25 s.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi müstəqillik dövrü Azərbaycan teatrında (1991-2015-ci illər) repertuar problemini sistemli şəkildə araşdırmaq, onun elmi mənzərəsini yaratmaqdır. Bu məqsəddən irəli gələrək dissertasiyada aşağıdakı elmi vəzifələr qarşıya qoyulmuşdur:

- Müstəqillik dövrünün ilk illərində Azərbaycan teatrının bədii-təşkilati mənzərəsini nəzərdən keçirtmək;
- Repertuarda ictimai prosesə refleksiya kimi yer almış milli dramaturgiya nümunələrini müəyyən etmək;
- Xarici dramaturgiyanın Azərbaycan teatrında təcəssüm parametrlərini aşkara çıxartmaq;
- Azərbaycan teatrının repertuarında yeni mövzu və janr axtarışlarının istiqamətlərini müəyyənləşdirmək;
- Repertuarda yer alan milli klassika nümunələrinin müasir təfsiri problemini araşdırmaq;
- Xarici dramaturgiya nümunələrinin milli teatrın dünya teatr prosesinə inteqrasiyasında rolunu aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyada tədqiq edilən problemlə bağlı dünya və Azərbaycan teatr tarixinin təcrübəsindən istifadə olunmuş, müasir sənətşünaslığın, estetika, kulturologiya, sosiologiya elmlərinin nailiyyətləri əsas götürülmüşdür. Tədqiqat işinin başlıca metodoloji əsasını müqayisəli təhlil metodu təşkil etmişdir. Bununla yanaşı, araşdırma zamanı problemin inkişaf dinamikasını izləmək, mövzunun tarixi mənzərəsini yaratmaq üçün tarixi-xronoloji təhlil metodundan da istifadə olunmuşdur. Tədqiqat işində həmçinin, repertuarı təşkil edən tamaşaların mövzu, janr və üslub məsələlərindən bəhs olunarkən tipoloji təhlil metoduna da istinad edilmişdir.

Dissertasiyada dünya fəlsəfi-estetik fikirinin görkəmli simaları – Aristotel, D.Didro, G.Hegel, V.Q.Belinski, K.S.Stanislavski, B.Brext, S.Bekket, P.Bruk, Y.Qrotovski və b., Azərbaycan ədəbiyyatının klassikləri M.F.Axundzadə, Ə.Haqverdiyev, C.Cabbarlı, tanınmış sənətşünaslar C.Cəfərov, Y.Qarayev, M.Məmmədov, M.Allahverdiyev, İ.Kərimov, M.Əlizadə, İ.İsrafilov, İ.Rəhimli, A.Talıbzadə, A.Dadaşov, Ə.Vəliyev, Y.Əlioğlu,

V.Qafarov, N.Ağayeva, F.Cəlilova, E.Cəfərov və b. müəlliflərin əsərlərindən bəhrələnilmiş, onların dünya və Azərbaycan teatr prosesi, teatr və dram nəzəriyyəsinin müxtəlif məsələləri ilə bağlı fikir və mülahizələri tədqiqata cəlb olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aparılan araşdırmanın mühüm nəticələrini özündə əks etdirir və onlar aşağıdakı kimi sıralanmışdır:

- Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ictimai-mədəni fəaliyyətin bütün sahələrində olduğu kimi, milli teatrın inkişafında da yeni mərhələnin başlanması;
- Müstəqillik yolunda aparılan mübarizə, Qanlı 20 yanvar, I Qarabağ müharibəsi, Xocalı soyqırımı, torpaqlarımızın 20 faizinin işğalı və ölkədə baş verən mürəkkəb ictimai-siyasi hadisələrin teatr prosesinə, eləcə də repertuara birbaşa təsir etməsi;
- Teatr prosesi və repertuarın mövzu, janr və üslub mənzərəsi ilə cəmiyyətdə baş verən ictimai-siyasi, iqtisadi-sosial proseslərin adekvatlığı;
- 1990-2000-ci illər aralığında teatrların repertuarında xarici dramaturgiya nümunələrinin azlıq, yerli müəlliflərin əsərlərinin çoxluq təşkil etməsi;
- Yeni yaranan dövlət və müstəqil teatrların dövrün tələbi kimi meydana gəlməsi;
- Dövlət Gənclər, Yuğ, Pantomima, Bakı Marionet, Bakı Kamera, Bakı Bələdiyyə teatrlarının yaranması ilə milli teatr məkanında fərqli mühitin formalaşması və teatr prosesinin intensivləşməsi;
- Milli teatr təfəkküründə və dramaturgiyada Elçin, K.Abdulla, Ə.Əmirli, F.Mustafa və b. yaradıcılığının timsalında yeni təmayüllərin meydana gəlməsi;
- Azərbaycanın müstəqilliyi bərqərar olunduqdan sonra teatrların xarici festival və qastrol səfərlərində iştirakı, eləcə də ölkədə beynəlxalq teatr tədbirlərinin keçirilməsi sayəsində dünya teatr məkanına inteqrasiya imkanlarının və meyillərinin artması;
- Müasir Azərbaycan dramaturgiyasında yeni imzaların ortaya çıxması və onların repertuarın zənginləşməsində rolu;

- 1992-2015-ci illər aralığında təşkil edilən yerli və beynəlxalq teatr festivallarının repertuarın genişlənməsinə təsiri;

- Bir sıra klassik və müasir xarici dramaturgiya nümunələrinin milli repertuarda ilk dəfə yer alması;

- 2000-ci illərdən etibarən, teatrların repertuarında xarici dramaturgiya nümunələrinin çəkisinin və teatr sahəsində beynəlxalq əməkdaşlıq faktlarının artması;

- 2000-ci illərdən başlayaraq ölkədə siyasi sabitliyin bərpası, teatr haqqında hüquqi-normativ sənədlərin imzalanması, dünya teatr məkanına inteqrasiyanın sürətlənməsi və s. kimi amillərin teatr prosesinin inkişaf dinamikasına müsbət təsir göstərməsi.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik illərində (1991-2015-ci illər) Azərbaycan teatrının repertuar problemi mövzusuna müxtəlif məqalə və resenziyalarda, monoqrafiya və dissertasiyalarda qismən toxunulsa da indiyədək sistemli şəkildə, kompleks halında tədqiqata cəlb olunmamışdır. Bu səbəbdən dissertasiyada qoyulan problem xüsusi aktuallıq kəsb edir. Dissertasiyada əldə edilən elmi yeniliklər aşağıdakılardır:

- İlk dəfə olaraq məhz bu dissertasiyada Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə yanaşı, yeni yaranan Dövlət Gənclər Teatrı, Yuğ Teatrı, Bakı Kamera Teatrı, Bakı Bələdiyyə Teatrlarının repertuarı sistemli və kompleks halında öyrənilir;
- Dissertasiyanın daha bir yeniliyi ondan ibarətdir ki, yeni fəaliyyətə başlayan “Meydan”, “Arif” Satira, “Bəşir”, “Tənqid-Təbliğ”, “İlham” miniatür, “İbrus”, “Sönməyən ulduzlar”, “Əhli-Beyt” kimi özəl teatrların repertuarı da ilk dəfə olaraq məhz bu dissertasiyada geniş nəzərdən keçirilir;
- Tətqiqatda həmçinin, “Pantomima” və “Marionet” kimi teatrlarla yanaşı, “Araz” və “Zəfər” kimi teatr-studiyalarının repertuarında yer alan tamaşalar diqqətlə izlənilir;
- İlk dəfə olaraq məhz bu tədqiqatda 1992-2015-ci illər aralığında keçirilən yerli və beynəlxalq festivalların repertuarı geniş şəkildə öyrənilir;

- Milli teatrşünaslıq elmində ilk dəfə bu tədqiqatda dövlət, bələdiyyə və özəl teatrların repertuarı, o cümlədən festivallarda oynanılan tamaşaların əksəriyyəti müqayisəli təhlil edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya "Müstəqillik dövrü Azərbaycan teatrının repertuar problemi (1991-2015-ci illər)" mövzusunu ilk dəfə sistemli və kompleks halında araşdıran tədqiqat əsəri kimi həm elmi-nəzəri, həm də praktiki əhəmiyyətə malikdir.

Tətqiqat işi, müstəqillik illərində yaranan və fəaliyyət göstərən dövlət, bələdiyyə və özəl teatrlarla yanaşı, 1992-2015-ci illərdə keçirilən yerli və beynəlxalq əhəmiyyətli festivalların repertuarının öyrənilməsi, sənət ocaqlarında yeni mövzu və janr axtarışlarının təhlil edilməsi, repertuarda yer alan yerli və xarici dramaturgiya nümunələrinin əsaslı şəkildə araşdırılması və dəyərli elmi qənaət və nəticələrin əldə olunması baxımından elmi-nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiya, bəhs etdiyi dövrdə Azərbaycan teatrının geniş mənzərəsini yaradan tədqiqat olaraq, humanitar yönlü ali və orta təhsil müəssisələrinin müvafiq ixtisasları üçün tədris proqramlarının, dərs və metodik vəsaitlərin hazırlanmasında baza rolunu oynaya, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində teatrşünaslıq, rejissorluq, aktyorluq və ədəbi iş ixtisasları üzrə təhsil alan magistrant və tələbələr üçün tədris materialı kimi faydalı ola bilər. Dissertasiyada irəli sürülən müddəalardan və əldə edilən qənaətlərdən, həmçinin, ehtiva etdiyi zəngin faktoqrafik materialdan gələcək tədqiqatlar zamanı yararlanmaq olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu və ayrı-ayrı müddəaları Azərbaycanda və xaricdə dərc edilmiş məqalələrdə geniş şərh edilmişdir. Mövzu ilə bağlı əldə edilən qənaətlər yerli və beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və

İncəsənət İnstitutunun “Teatr, kino və televiziya” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, hər birində üç paraqraf olmaqla iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin “Giriş” hissəsi 12.180 işarə, “Müstəqilik dövrünün ilk illəri Azərbaycan teatrında yeni bədii-ideoloji axtarışlar mərhələsi kimi (1990-2000-ci illər)” adlı I fəslin “Müstəqillik dövrünün ilk illərində Azərbaycan teatrının bədii-təşkilati mənzərəsi” adlı birinci paraqrafı 39.587, “Repertuarda milli dramaturgiya-ictimai prosesə refleksiya kimi” adlı ikinci paraqrafı 41.353, “Xarici dramaturgiyanın Azərbaycan teatrında təcəssüm parametrləri” adlı üçüncü paraqrafı 27.454, “XXI əsrin əvvəlləri Azərbaycan teatrının yeni repertuar axtarışları dövrü kimi (2001-2015-ci illər)” adlı II fəslin “Azərbaycan teatrının repertuarında yeni mövzu və janr axtarışları” adlı birinci paraqrafı 27.825, “Repertuarda milli dramaturgiya-klassikadan müasirliyə doğru” adlı ikinci paraqrafı 38.070, “Repertuarda xarici dramaturgiya-milli teatrın dünya teatr prosesinə inteqrasiyasının amili kimi” adlı üçüncü paraqrafı 41.718 işarə, “Nəticə” hissəsi 17.078 işarə olmaqla, ümumi həcmi 261.308 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, obyekti və predmeti, onun işlənmə səviyyəsi, tədqiqatın elmi yeniliyi, obyekti və predmeti, nəzəri-praktiki əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın I fəsli **“Müstəqillik dövrünün ilk illəri Azərbaycan teatrında yeni bədii-ideoloji axtarışlar mərhələsi kimi (1990-2000-ci illər)”** adlanır və özündə üç paraqrafı birləşdirir. **“Müstəqillik dövrünün ilk illərində Azərbaycan teatrının bədii-təşkilati mənzərəsi”** adlanan Birinci paraqrafda qeyd olunur ki,

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlləri Azərbaycanın müasir tarixinə ən mürəkkəb, qanlı-qadalı, eyni zamanda şərəfli dövr kimi yazıldı. 1990-cı ildə törədilən Qanlı 20 Yanvar hadisələri, müxtəlif terror aktları, 1992-ci ildə Xocalı soyqırımı, rus ordusunun köməyi ilə erməni faşistlərinin torpaqlarımızın 20 faizini işğal etməsi xalqımızın iradəsini qıra bilmədi. Məhz bu illərdə qanı bahasına olsa da xalqımız dövlət müstəqilliyini bərpa etdi və qoruyub saxladı.

Bu dövrdə ölkəmizdə baş verən ictimai-siyasi hadisələr milli teatr prosesinə də öz ciddi təsirini göstərirdi. Müstəqillik qazandıqdan sonra yeni teatrların yaranması, sovetin ideoloji basqısının aradan götürülməsi nəticəsində fərqli repertuar siyasəti həyata keçirilməyə başlandı.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı 1990-cı ildə 71 illik fasilədən sonra ilk dəfə qardaş Türkiyədə səfərdə oldu. Kollektiv İ.Əfəndiyevin "Bizim qəribə taleyimiz" və "Sevgililərin cəhənnəmdə vüsalı" pyesləri əsasında hazırlanan tamaşaları Türkiyə seyrçilərinə uğurla nümayiş etdirdi.Yeni yaranan Yuğ teatr-studiyası da 1991-ci ildə İstanbulda keçirilən festivalda "Salam" adlı tamaşası ilə ölkəmizi layiqincə təmsil etdi. Teatrlarımız qastrol səfərlərində zamanla daha çox səsləşən tamaşaların nümayiş etdirilməsinə üstünlük verirdi.

Ölkəmiz 1991-ci il oktyabr ayının 18-də yenidən öz müstəqilliyinə qovuşsa da onu qorumaq xalqımıza çox ağır itkilər hesabına başa gəldi. Birinci Qarabağ müharibəsi 1994-cü ilə kimi, atəşkəs razılaşması əldə olunana qədər ("Bişkek protokolu", 08.05.1994) davam etdi, torpaqlarımızın 20 faizi işğal altında qaldı. Qərbi Azərbaycanlı soydaşlarımız ata-baba torpaqlarından deportasiya edildi, Qarabağın işğal olunmuş rayonlarının əhalisi məcburi köçkün düşdü, bir milyona yaxın insan qaçqın və məcburi köçkün həyatı yaşamağa başladı. Nəticədə, Şuşa, Ağdam, Füzuli, İrəvan Dövlət Azərbaycan Dram Teatrları doğma yurdlarından didərgin düşdülər, fəaliyyətlərini Bakıda və digər şəhərlərdə davam etdirmək məcburiyyətində qaldılar.

Teatrlar ağır və çətin şəraitdə olmasına baxmayaraq, yaradıcılıq axtarışlarını davam etdirməyə çalışırdı.

Bu dövrdə yeni yaranmış teatrlar, sanki həmin prosesin başlanmasına rəvac verdi. Yeni teatrların meydana gəlməsi fərqli estetika, fərqli repertuar siyasəti demək idi. Bunun əhəmiyyəti həm də ondan ibarət idi ki, bu teatrlar yeni repertuarla yanaşı, öz tamaşaçı auditoriyasını da yaradırdı. Beləliklə, yeni yaranan Dövlət Gənclər, Yuğ, Pantomima, Bakı Kamera, Bakı Marionet, Bakı Bələdiyyə kimi dövlət və bələdiyyə teatrları ilə yanaşı, "Meydan", "Arif" Satira, "Tənqid-Təbliğ", "İlham" miniatür, "Sönməyən ulduzlar", "Əhli-Beyt", "İbrus" və s. özəl truppaların fəaliyyəti, o cümlədən "Araz" və"Zəfər" kimi teatr-studiyalarının yaradıcılıq axtarışları aparması repertuarın zənginləşməsində önəmli rol oynadı.

Müstəqillik illərində yeni yaranan Dövlət Gənclər, Yuğ, Pantomima, Bakı Kamera, Bakı Marionet Teatrları öz yaradıcılıq konsepsiyalarına görə ənənəvi sənət ocaqlarından fərqlənirdi. Bu mənada, adı çəkilən truppaların yaranışı Azərbaycan teatr tarixi üçün böyük mədəni hadisə idi.

Azərbaycanda ilk müstəqil teatrın yaradılması 1987-ci ilə təsadüf edir. Həmin il rejissor Arif Ağayevin səyi nəticəsində, Bakının Əhmədli qəsəbəsində 171 nömrəli məktəbin binasında təsərrüfat hesablı "Meydan" teatrı yaradılmışdı. Kollektiv pərdələrini yazıçı Anarın "Adamın adamı" pyesinin tamaşası ilə açmışdı. Teatrın dövrlə səsləşən aktual mövzulara toxunması, truppanın repertuar məsələsinə necə ciddi yanaşdığını göstərirdi.

"İlham" miniatür, "Əhli-Beyt" və s. kimi özəl truppaların repertuarında yer alan tamaşalar forma, üslub və mövzusuna görə seçilirdi. Belə ki, "İlham" miniatür teatrı yeni yazılmış mətnlər əsasında miniatür formalara üstünlük verirdisə, "Əhli-Beyt" təkcə Azərbaycanda deyil, eyni zamanda "*...Qafqazda ilk dini teatr...*" idi[18].

Yeni yaranan "Araz" və "Zəfər" teatr-studiyaları da teatr prosesində öz sözlərini deməyə çalışırdılar. Belə ki, "Zəfər" teatr-studiyası V.Şekspirin"Afinalı Timon" pyesini Azərbaycan dilində ilk dəfə (2008) A.Nemətovun quruluşunda tamaşaya qoymuşdu.

---

[18]Nazilə. "Əhli-Beyt" Teatrının 1 yaşı tamam oldu. // 525-ci qəzet. – 2001, 15 iyul

1992-2015-ci illərdə yerli və beynəlxalq teatr festivallarının keçirilməsi repertuar məsələsinə ciddi təsir göstərmişdir. “Mono” adlı ilk teatr festivalının keçirilməsi 1992-ci ilə təsadüf etmişdir. Festivalların təşkili növbəti illərdə də davam etdirilmiş, “Mono”, “Him-Cim”, “Eksperimental”, “Milli klassika festivalı”, “Festivallar festivalı”, “Boş məkanın dolğunluğu”, “Yeni teatr”, “2+1”, “Şəki Beynəlxalq Teatr Festivalı”, “Bizim teatr” və s. festivallar yaradıcılıq axtarışları və repertuarın zənginləşdirilməsi baxımından böyük əhəmiyyət daşımışdır. I və II “Him-Cim” festivalının verdiyi ən böyük töhfə isə, heç şübhəsiz ki, yeni bir teatrı-Pantomima teatrını Azərbaycan teatrına qazandırması olmuşdur.

2000-ci illərdən etibarən ölkəmizdə “Teatr və teatr fəaliyyəti haqqında” Qanun (2006) [19], “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” Sərəncam (2007)[20], “Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı” (2009) [21] və s. kimi mühüm sənədlərin qəbul edilməsi teatrın normativ hüquqi bazasını möhkəmləndirdi və teatr prosesinin inkişafını bir qədər də sürətləndirdi.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə baş verən mürəkkəb ictimai-siyasi hadisələrə, iqtisadi-sosial problemlərə baxmayaraq milli teatr bu çətin sınaqlardan nəinki çıxa bildi, hətta yeni yaranan teatrların hesabına öz şəbəkəsini genişləndirərək yeni inkişaf mərhələsinə qədəm qoydu.

**“Repertuarda milli dramaturgiya-ictimai prosesə refleksiya kimi”** adlı ikinci paraqrafda qeyd edilir ki, XX əsrin 90-cı illərində mövcud teatrlarla yanaşı, yeni yaranmış teatrların yerli dramaturgiya nümunələrinə üstünlük verməsi, sənət ocaqlarının dövrə uyğun

---

[19] “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. – Bakı: - 2006, 29 dekabr https://e-qanun.az/framework/12133

[20] “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında”Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı: - 2007, 19 fevral https://e-qanun.az/framework/12805

[21] “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı”. – Bakı: 2009, 18 may https://e-qanun.az/framework/17639

mövzulu tamaşalar nümayiş etdirməsi ictimai prosesə refleksiya səciyyəsi daşımışdır.

Belə əsərlərdən "Yalan", "Tənha iydə ağacı", "Hökmdar və qızı", "Özümüzü kəsən qılınc", "Ah, Paris, Paris...", "Aydın" (ADAMDT); "Şəhidlər", "Kiçik təpə", "Mağara" (ADGTT); "Şəhidlər", "Şeytan tələsi", "Ölülər", "Yaxşı padşahın nağılı" (DGT); "Vətənə igidlər gərəkdir" (BBT); "Açar", "Dad", "Cənab Ö" (Yuğ Teatrı); "Məkkəyə yol", "Ruh" (BKT) və s. tamaşaların adlarını qeyd etmək olar.

AMDT Qarabağ mövzusuna müraciət edərək yerli müəlliflərin "Ana intiqamı" (V.Babanlı), "Qisas qiyamətə qalmaz" (N.Hacızadə), "Hökmdar və qızı" (İ.Əfəndiyev) pyeslərini səhnəyə qoydu.

Bu mənada, Gənclər Teatrının pərdələrini ilk dəfə açdığı "Qətl günü" (Y.Səmədoğlu, 1989), Yuğ teatrının repertuarında yer alan "Oğul" ("Kitabi Dədə Qorqud", 1990) və s. tamaşaların adlarını çəkə bilərik.

Gənclər Teatrının yerli müəllifin əsərinə ("Qətl günü") müraciət etməsi heç də təsadüfi deyildi. Teatrın bədii rəhbəri və tamaşanın quruluşçu rejissoru H.Atakişiyevin dediyi kimi, "*ilk tamaşada belə bir milli əsərin oynanılması həm dövrün tələbi, həm də teatrın konstitusiyası ilə həmahəng idi*"[22]."Yuğ" teatrı da baş vermiş hadisələrə biganə qalmayaraq, özünün "Oğul" adlı tamaşasını teatrsevərlərə təqdim etmişdi. Tamaşada Dədə Qorqud obrazını ifa edən aktyorun ağı söyləyərkən səhnəyə qərənfil səpməsi, Qanlı Yanvar faciəsi zamanı həlak olmuş qəhrəman oğullarımızın xatirəsinin yad olunmasını simvollaşdırırdı: "*...Vaqif İbrahimoğlu öz tamaşasının kontekstində 1990-cı ilin yanvar hadisələrini sitatlaşdırmışdı*"[23].

Gənc Tamaşaçılar və Sumqayıt Teatrlarında "Mənim ağ göyərçinim" (T.Vəliyeva) tamaşası səhnəyə qoyulmuşdu. Sumqayıt

[22]Əlibəyli, B. Teatr tamaşaçını arxasınca aparmaqdansa, özü tamaşaçının arxasınca qaçır. // 525-ci qəzet. - 2004, 4 sentyabr
[23]Vəliyev, Ə. Əqidə, ruh və teatr. - Bakı: Stil Matbaacilik, - 2009. - 240 s., s. 201

Teatrında rejissor F.Məhərrəmovun səhnə həlli verdiyi tamaşada sosial-ictimai hadisələr daha qabarıq göstərilmişdi.

Sənət ocaqları repertuarlarında sosial-ictimai mövzulu tamaşalara da geniş yer ayrırdı. Milli Dram Teatrında uğurlu təcəssüm tapan "Ah, Paris, Paris...", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir" ("Diaqnoz "D") trilogiyası fikirlərimizə əyani sübutdur. Xalq yazıçısı Elçin qələmə aldığı trilogiyada cəmiyyətdə baş verən xaosu çılpaqlığı ilə əks etdirmişdi

Üçüncü paraqraf **"Xarici dramaturgiyanın Azərbaycan teatrında təcəssüm parametrləri"** adlanır. Sənət ocaqlarımız müstəqilliyin ilk illərindən etibarən, fikirlərini sənətsevərlərə çatdırmaq üçün daha geniş meydan qazandılar. Truppalar repertuarlarına bir sıra xarici ölkələrin klassik və müasir dramaturji mətnlərini daxil etdi.

Teatrlar tərcümə əsərləri arasında daha çox ictimai-fəlsəfi, sosial-psixoloji, məhəbbət mövzulu əsərlərə üstünlük verirdi. Belə tamaşalardan "Məhəbbət və azadlıq", "Qarağaclar altında ehtiraslar", "Kral Lir" (ADAMDT); "Karmen" (DGT); "Otello" (BKT); "Medeya" (J.Anuy) (BBT) və s. adlarını qeyd edə bilərik.

Müstəqillik illərində teatrlarımızda ilk dəfə olaraq bir sıra əcnəbi dramaturqun əsərlərinə müraciət edilmişdir. Milli Dram Teatrı repertuarında ilk dəfə olaraq Sofoklun "Şah Edip, yaxud alın yazısı" əsərini səhnəyə qoymuşdur. Sənət ocağı məhz, müstəqillik illərində V.Şekspirin "Kral Lir" faciəsinin orijinaldan edilmiş tərcüməsinə səhnə həyatı vermişdir.

Gənclər Teatrı ilk dəfə olaraq V.Şekspirin "Yay gecəsində yuxu", habelə absurd teatrının banilərindən olan S.Bekketin "Qodo həsrətində" pyeslərini sənətsevərlərə təqdim etmişdir. Tamaşaçılar ilk dəfə olaraq R.Toma, P.Merime, O.Uayld kimi dramaturqların yaradıcılığı ilə də Dövlət Gənclər Teatrında tanış olmuşlar. Bakı Bələdiyyə Teatrı öz pərdələrini ilk dəfə J.Anuyun "Medeya" faciəsi ilə açmış, həmçinin, ilk dəfə olaraq Ə.Nesinin "Tənha qadınlar" pyesini səhnələşdirmişdir.

Yuğ Teatrının "Ümid" (S.Bekket) monotamaşası da uğurlu səhnə həlli tapmışdı. "*Azərbaycan teatr mədəniyyətində ilk*

*pantomim oyunu, ilk sözsüz tamaşa, faktiki olaraq, B.Xanızadənin 1993-cü ildə "Yuğ" teatrında Samuil Bekketin əsərinin mətni əsasında "Ümid" lal-oyunundan başlayır. Bu tamaşa Azərbaycan teatr mədəniyyəti tarixində yeni sənət tendensiyasını müjdələyirdi"*[24].

Gənclər Teatrının sayca 50-ci tamaşası məhz V.Şekspirin "Hamlet" faciəsi oldu. Tamaşanın premyerası 1998-ci ilin aprelin 3-də baş tutdu. H.Atakişiyevin səhnə yozumu verdiyi "*Əsərdə Hamletin ölümü təkcə Hamletin yox, imperiyanın ölümü, süqutudur. İmperiya o qədər zəifləyir ki, onu idarə etməyə heç kim tapılmır. Başqa dövlətin nümayəndəsi gəlib imperiyaya başçılıq edir*"[25].

1990-2000-ci illər aralığında Akademik Milli Dram Teatrının repertuarında olan 42 tamaşanın cəmi 8-i, Gənc Tamaşaçılar Teatrının repertuarında yer alan 36 səhnə əsərindən cəmi 2-si, Yuğ Teatrının repertuarındakı 37 tamaşadan 8-i, Bakı Kamera Teatrının təqdim etdiyi 12 tamaşadan 5-i, Dövlət Gənclər Teatrında oynanılan 60-dan çox tamaşadan 11-i, Bakı Bələdiyyə Teatrının repertuarında 12 tamaşadan 4-ü xarici dramaturgiya nümunəsi olmuşdur.

Göründüyü kimi, teatrların 1990-2000-ci illər aralığında səhnəyə qoyduğu tamaşalar arasında, xarici dramaturgiya nümunələri azlıq təşkil edirdi. Ölkəmizdə baş verən hadisələr, müstəqilliyin yenidən əldə edilməsi, yerli dramaturgiya nümunələrinə daha çox üstünlük verilməsi, xarici ölkələrə inteqrasiyanın yeni başlanması və s. amillər sözügedən prosesə öz təsirini açıq-aşkar göstərirdi.

Dissertasiyanın "**XXI əsrin əvvəlləri Azərbaycan teatrının yeni repertuar axtarışları dövrü kimi (2001-2015-ci illər)**" adlanan II Fəsli üç paraqrafda araşdırılır. II Fəslin birinci paraqrafı "**Azərbaycan teatrının repertuarında yeni mövzu və janr axtarışları**" adlanır. XXI əsrdə ictimai-siyasi sabitliyin bərpası, yerli və beynəlxalq festivalların keçirilməsi, o cümlədən beynəlxalq əhəmiyyətli teatr konfranslarının təşkili, teatr haqqında mühüm sənədlərin imzalanması, dünya teatr məkanına inteqrasiya amilinin

[24] Talıbzadə, A. Azərbaycanda pantomim qardaşlığı. Azərbaycan teatr antologiyası [2 cilddə] / A.Talıbzadə – Bakı: E.L., c. 2. – 2013. – 622 s., s. 515
[25] Etibar. Hamletə namizədimiz çoxdu... // Press Fakt. - 1997, 03-09 yanvar

sürətlənməsi və s. kimi məsələlər teatr prosesinin dinamik inkişafına səbəb oldu.

Truppalar yeni mövzu və janr axtarışlarını davam etdirir, yerli dramaturqları teatra cəlb etməyə çalışırdılar. Elçin, Ə.Əmirli, K.Abdulla, H.Mirələmov, A.Məsud, F.Mustafa, E.Hüseynbəyli kimi dramaturqlar qələmə aldıqları müxtəlif mövzulu əsərlərlə repertuarın təşkilində və zənginləşməsində əhəmiyyətli rol oynayırdılar. Yerli dramaturqların 1991-2015-ci illər aralığında qələmə aldıqları pyeslərin mövzu-problematikası biri-birindən fərqlənirdi. Elçinin müstəqillik illərində qələmə aldığı pyeslərində, müasir insan obrazları çılpaqlığı ilə əks olunurdu: *"Elçin dramaturgiyası milli dramaturgiyamızda bu vaxta qədər rast gəlmədiyimiz yeni mövzuları, gözlənilməz sujet kombinasiyalarını, düşüncə və hisslərin stereotipdən uzaq bir formada ifadə edilməsi ilə fərqlənən yeni insan tiplərini, obrazlarını yaratdı"*[26].

Dramaturq Ə.Əmirli 1990-cı illərdə qələmə aldığı "Varlı qadın" pyesində maliyyə sıxıntılarını önə çəkmiş, sonrakı illərdə yazdığı "Sevən qadın" əsərində isə cəmiyyətdəki mənəvi böhranın yaranması problemini qabartmışdı. Söylədiyimiz fikirlər "Mesenat", "Şah Qacar", "Hasarın o üzü" və s. tamaşalarda özünü bariz şəkildə göstərirdi.

1991-2015-ci illər aralığında eyni əsərlərə bir neçə teatrın müraciət etməsini müşahidə edirik. Sənət ocaqlarının repertuarında yer alan belə əsərlərə: "Varlı qadın", "Şah və şair və yaxud hamı səni sevənlər burdadı", "Hamlet", "Nazirin xanımı", "Generalın son əmri", "Laləli düzən", "Herostratı unudun" (ADGT və ADMDT) və s. tamaşaları nümunə gətirə bilərik. İlk dəfə Gənclər Teatrının səhnəsində oynanılan "Varlı qadın", "Generalın son əmri" və s. əsərlər 2000-ci illərdə Milli Dram Teatrının repertuarına daxil edildi. Gənclər Teatrından fərqli olaraq ana teatrımızın səhnəsində "Hamlet" tamaşası daha uğurlu səhnə həlli gördü. "Şah və şair və yaxud hamı səni sevənlər burdadı" əsəri öz dolğun səhnə yozumunu daha çox

[26] Əlizadə, M. Elçin fenomeninin Azərbaycan milli teatr prosesinə təsiri. // 525-ci qəzet. - 2011, 10 sentyabr

Gənclər Teatrında tapdı. Ə.Əmirlinin qələmə aldığı “Varlı qadın” tamaşası isə, hər iki sənət ocağının səhnəsində uğur qazandı.

Bir çox teatrlar eyni əsərləri müxtəlif illərdə, yenidən öz repertuarına daxil etdi. Belə tamaşalardan “Hökmdar və qızı” (1996) sonrakı quruluşda “Qarabağnamə” (2011), “Ərizə” (1990) pyesi “MSS-Mən, səni sevirəm” (2011) adlandı. 2000-ci illərdə “Brüsseldən məktublar” (2003) əsəri “Qürbətdən gələn məktublar” (2012) adı ilə və “Qatil” pyesi Milli Dram Teatrında iki dəfə səhnə ömrü yaşadı.

Müxtəlif teatrlar bəzən eyni pyesləri fərqli janrlarda hazırlamışdır. AMDT-ı “Aydın” tamaşasının janr göstəricisini “iki hissəli faciə”, GTT isə “iki hissəli məhəbbət dramı” kimi müəyyən etmişdi. M.Mirzə tamaşada daha çox Aydının faciəsini vermiş, C.Səlimova isə daha çox onun romantik ruhlu şair olması məqamını qabartmışdı. Milli Dram Teatrında nümayiş etdirilən tamaşa səhnə həlli, aktyor ifaları və s. komponentlərinə görə daha ciddi yaradıcılıq uğuru əldə etmişdi.

Repertuarda qarışıq janrda hazırlanan tamaşalar da geniş yer alırdı. Dövlət Gənclər, Bakı Kamera Teatrlarının repertuarında rast gəlinən qarışıq janrlı əsərlərdən: “Şeytan tələsi” (iki hissəli rəqsli, meyxanalı fantasmaqoriya), “Su pərisi” (çox güman Absurdsayağı hay-küy / DGT); “Skapenin kələkləri” (komediya balet), “Hekayəti-Xırs-Quldurbasan” (Musiqili-komediya-Buf) (BKT) və s. tamaşaları fərqləndirmək olar.

Yuğ, Pantomim, Marionet teatrları üslubuna, formasına, fərqli janrlarda hazırladıqları tamaşalarına görə digər truppalardan seçilirdi.

II Fəslin ikinci paraqrafı “**Repertuarda milli dramaturgiya-klassikadan müasirliyə doğru**” adlanır. Klassik əsərlər teatrlar üçün hər zaman məhək daşı funksiyasını yerinə yetirib. Bu fəsildə qeyd olunduğu kimi, truppalar 2001-2015-ci illərdə repertuarlarında klassiklərdən daha çox M.F.Axundzadə, C.Məmmədquluzadə, C.Cabbarlı, H.Cavid, İ.Əfəndiyev kimi dramaturqların pyeslərinə müraciət edib.

2000-ci illərdə Akademik Milli Dram və Bakı Bələdiyyə Teatları C.Məmmədquluzadənin “Ölülər” pyesini hazırlamışdı. Milli

Dram Teatrında qoyulmuş tamaşanın (03.04.2004) rejissoru M.Fərzəlibəyov əsərdə komiklikdən daha çox tragikliyə üstünlük vermişdi. Onun yeni səhnə həllində İsgəndər tragediya qəhrəmanına çevrilmişdi. Lakin *"...tamaşadakı "ölü canlar", "diri ölülər" fəlsəfi-psixoloji anlamının səhnə həlli tapılmamışdı. Tamaşanın çağdaş düşüncəyə təsir edəcək qlobal problem ideyası zəif idi"*[27]. İstər Bakı Bələdiyyə Teatrının, istərsə də Akademik Milli Dram Teatrının repertuarında yer alan "Ölülər" tamaşası uğur qazana bilmədi.

Yuğ, Gənc Tamaşaçılar və Milli Dram Teatrları "Sən həmişə mənimləsən" əsərini səhnəyə qoydu. Yuğ Teatrının 2003-cü il dekabrın 29-da oynadığı tamaşa maraqla qarşılandı. V.İbrahimoğlu hər zaman olduğu kimi, pyesə fərqli rakursdan yanaşmışdı. Rejissorun yozumunda Həsənzadə kommunist ideologiyasının köləsinə çevrilmişdi. Yalnız Nargilə azadlığın carçısı olmuşdu. Beləliklə,V.İbrahimoğlu bütün bunları nəzərə alaraq Nargiləni obraz olaraq Həsənzadədən qüvvətli vermişdi.

Gənc Tamaşaçılar Teatrında hazırlanan "Sən həmişə mənimləsən" tamaşası isə uğursuzluqla nəticələnmişdi.

Yuğ Teatrının təcəssüm etdirdiyi "Mən, Məhəmməd Füzuli..." səhnə divanı layihəsi sənətsevərlər tərəfindən maraqla qarşılandı. Truppa fərqli rejissor yozumları əsasında Füzuli qəzəllərindən ibarət olan müxtəlif tamaşalar ərsəyə gətirdi.

Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulan "Hekayəti-xırs-quldurbasan" komediyası uğur qazansa da, "Məkkəyə gedən yol" və "Aydın" tamaşaları haqqında bunu demək olmazdı.

Akademik Milli Dram Teatrı 2011-ci ildə "Hökmdar və qızı" pyesinə "Qarabağnamə" adı ilə yenidən M.Fərzəlibəyovun quruluşunda səhnə həyatı verdi.

Rejissor M.Ələkbərzadə H.Cavidin "Topal Teymur" pyesi əsasında hazırladığı "Əmir Teymur" tamaşasında Əmir Teymur və Yıldırım Bəyazidin döyüşdəki uğurlarını qabartmaqdan daha çox, hər iki qüdrətli türk hökmdarının (qərbin fitvasına uyaraq) bir-birilə

---

[27] Rəhimli, İ.Ə. Azərbaycan teatr tarixi:[5 cilddə] / İ.Ə.Rəhimli. – Bakı: Şərq-Qərb, - c. 3. – 2017. - 608 s., s. 341

apardığı mübarizənin, müharibənin böyük Turana yaşatdığı ağır zərbələrini işıqlandırmışdı. Rejissor tamaşanın sonunda hər iki tarixi şəxsiyyəti yerin altına göndərməklə qoyulan bütün suallara aydınlıq gətirmişdi.

Müstəqillik illərində dramaturqlarımızın tarixi mövzuda qələmə aldığı "Sənətkarın taleyi" (Elçin), "Şah və şair və yaxud hamı səni sevənlər buradadı" (K.Abdulla), "Şah Qacar" (Ə.Əmirli), "Nadir şah" (Y.Oğuz) kimi pyeslər müasir kontekstdə işlənmişdi.

K.Abdulla tarixi mövzuda, postmodern üslubda və psixoloji dram janrında maraqlı pyes ərsəyə gətirmişdi. Amma Gənclər Teatrında görkəmli rejissor H.Atakişiyevinin quruluşunda uğurlu səhnə həlli tapan "Şah İsmayıl və yaxud hamı səni sevənlər burdadır" tamaşasından fərqli olaraq, Milli Dram Teatrında gənc rejissor M.Mikayılovun səhnələşdirdiyi "Şah və şair" tamaşası böyük uğur qazanmadı.

Sənət ocağı bu tamaşanın ardınca repertuarını yenidən tarixi mövzulu əsərlə - "Şah Qacar" pyesi ilə zənginləşdirdi. "Şah Qacar" tamaşası bütün komponentləri ilə sənət hadisəsinə çevrildi. Y.Oğuzun "Nadir Şah" əsərinin tamaşası isə bütün ciddi cəhdlərə baxmayaraq, uğursuzluğa məruz qaldı.

II Fəslin üçüncü paraqrafı "**Repertuarda xarici dramaturgiya-milli teatrın dünya teatr prosesinə inteqrasiyasının amili kimi**" adlanır.

Bu illərdə Azərbaycan tamaşaçısı ilk dəfə A.Kamyu, T.Orbay, A.Krım kimi dramaturqların yaradıcılığı ilə tanış oldu. Sənət ocaqlarımızda ilk dəfə "Səhvlər komediyası", "21:15 Qatarı", "Keçmişdən zəng" kimi pyeslər səhnəyə qoyuldu.

Azərbaycan teatrının dünya teatr prosesinə inteqrasiyası özünü təkcə repertuarda nümayiş etdirilən xarici dramaturgiya nümunələrində deyil, eyni zamanda əcnəbi rejissorların teatrlara cəlb edilməsi yolu ilə də göstərirdi.

2000-ci illərdə Mədəniyyət Nazirliyinin dəstəyi, Milli Dram Teatrının təşəbbüsü ilə "GUAM-ın teatr məkanı" adlı layihəsi baş tutdu. "*Teatrın fəaliyyət potensialının yüksəldilməsi, yaradıcı heyətin peşəkarlıq vərdişlərinin təkmilləşməsi, oyun ştamplarından,*

*kirəcləşmiş streotiplərdən uzaqlaşmaq məqsədi ilə teatra müxtəlif tamaşalara quruluş vermək üçün fərqli yaradıcı üsluba, teatr düşüncəsinə malik olan yerli və əcnəbi rejissorlar dəvət olundu*”[28].

“Don Juan və həndəsə” (rej: L.Tsuladze, ADAMDT), “Xanuma” (rej: K.Kapanadze, ADAMT) və s. tamaşalarından fərqli olaraq “Lineyn trilogiyası”sı (rej: Y.V.Van Den Boş, ADGTT) uğurla təcəssüm etdirildi. Gənc Tamaşaçılar Teatrında “*Mister Yanın quruluş verdiyi “Lineyin trilogiyası” isə çağdaş Azərbaycan teatrının repertuarına daxil tamaşaların hamısından fərqlidir: fərqlidir bu üzdən ki, son dərəcə inandırıcıdır, səmimidir və aldatmağa, yalan danışmağa, oyun oynamağa, nəyisə yamsılamağa çalışmır, yansıtmağa çalışır; çalışır ki, Lineyn sakinlərini, bu sakinlərin yaşantılarını, problemlərini, məişətini bizə maksimal şəkildəyaxınlaşdırsın*”[29].

Sənət ocaqlarımız qismən də olsa repertuarlarında antik dramaturgiya nümunələrinə yer ayırırdı. Belə ki, Bakı Bələdiyyə, Bakı Kamera, Lənkəran Dövlət teatrlarının repertuarında Sofoklun “Elektra”, “Şah Edip” faciələri yer almışdı.

Teatrlar 2001-2015-ci illərdə repertuarlarında daha çox, Avropa dramaturgiyası nümunələrinə üstünlük vermişdir. XXI əsrdə teatrların Rasin, İbsen, Hamsun, Dikkens kimi klassik Avropa dramaturqlarına müraciətinin əsas səbəbi, repertuarda yeni mövzu və janr axtarışlarını həyata keçirtmək idi.

Milli Dram Teatrı V.Şekspirin 400 illik yubileyi ilə əlaqədar dramaturqun “Hamlet” faciəsini səhnələşdirdi. Tamaşanın premyerası 2002-ci il, martın 29-da baş tutdu. Tamaşanın müəllifi, quruluşçu rejissoru A.Nemətov idi. “Hamlet” pyesinin tərcümələri əsasında tamaşanın səhnə variantını professor İ.Rəhmli işləmişdi. “*Hamlet əsərinin ideyası, şərə qarşı müqavimət olduğundan baş qəhrəmanın niyyəti ilə həyata keçirilən mövzu həlli budur ki, yalnız həyatı qurban vermək hesabına haqq-ədaləti bərqərar etmək*

---

[28] İsrafilov, İ. …Amma görüləcək işlər qalır. // 525-ci qəzet. - 2012, 21 iyul

[29] Talıbzadə, A. Obyektivdə İrlandiyadır və yaxud ailəiçi faşism. // 525-ci qəzet. - 2014, 23 aprel

*mümkündür. Bizim ən böyük haqq-ədalətimiz isə Qarabağla bağlıdır”*[30].

Yuğ teatrı digər sənət ocaqlarına nisbətən daha çox müasir Amerika dramatrurgiyasına müraciət etmişdir. Sənət ocağı repertuarını Y.Onilin “Kölgə”, Q.Q.Markesin “Mister və Missis cəsəd”, X.L.Borxesin və A.B.Kasaresin hekayələri əsasında hazırladıqları “Tabu”, “Qəbir qazma üsulu” əsərləri ilə zənginləşdirmişdir.

Teatrlarımız sözügedən dövrdə MDB ölkələri və qonşu xalqların əsərlərinə geniş yer vermişdir. Ana teatrımızın “Keçmişdən zəng” adlı tamaşası teatrlarımızın A.Krım yaradıcılığına ilk müraciəti idi. Premyerası 2015-ci il yanvarın 30-da baş tutan tamaşanı gənc rejissor Ər-Toğrul maraqlı üslubda hazırlamışdı. Tamaşada baş verən hadisələr “müasir dildə” səhnələşdirilmişdi: *“Güclü forma yaradıcılığı düşüncəsinə malik olan olan gənc rejissor Ər-Toğrul oyun məntiqini, virtual oyunu səhnə tərtibatında, mizanların qurulma prinsipində və aktyor oyununda tamaşanın sonuna qədər qoruyur”*[31]du.

Teatrlarımız repertuarlarında türkdilli dramaturqların əsərlərinə də xüsusi yer ayırmışdır. 2001-2015-ci illər ərzində Azərbaycan teatrlarında səhnəyə qoyulmuş N.Hikmətin “Kəllə”, T.Minnulinin “Alın yazısı”, T.Cücənoğlunun “Uçqun”, S.Şendilin “Qanlı Nigar”, T.Orbayın “21:15 qatarı” (ADAMDT); O.Asenanın “Mustafa” (ADGTT); N.Hikmətin “İnək”, Ə.Nesinin “Bir az gəlirmisiniz” (DGT); N.Hikmətin “Damokıl qılıncı” (BBT); G.Dilmenin “Midasın qulaqları”, Y.Əmrənin “Olsun”, C.X.Cəbranın “Sur”, T.Narın “Şok” (Yuğ) və s. tamaşaların adlarını sadalaya bilərik.

1991-2015-ci illər aralığında Azərbaycan teatrlarında nümayiş etdirilən xarici dramaturgiya nümunələrindən bəziləri uğursuzluqla nəticələnsə də, əksər tamaşalar ciddi yaradıcılıq uğuru kimi qəbul edildi. Müstəqillik illərində Azərbaycan sənət ocaqlarının repertuar

---

[30] Dadaşov, A. İlin iki “Hamlet”i. // Ulduz - 2002, № 9, - s. 79-81

[31] Əliyeva, K. Akademik Teatrda Ctrl+Alt+Delete, Yaxud, virtual aləmdə bağışlamaq. // “Kaspi” qəzeti. - 2015, 6 fevral

siyasətində xarici dramaturgiyaya xüsusi yer verilməsi milli teatrın dünya teatr prosesinə inteqrasiyasında önəmli rol oynadı.

Dissertasiyanın **Nəticə** hissəsində əsas müddəalar ümumiləşdirilmiş və aşağıdakı qənaətlər əldəedilmişdir:

- Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ictimai-mədəni fəaliyyətin bütün sahələrində olduğu kimi, milli teatrın inkişafında da yeni mərhələ başlandı;
- Müstəqillik yolunda aparılan mübarizə, Qanlı 20 yanvar, I Qarabağ müharibəsi, Xocalı soyqırımı, torpaqlarımızın 20 faizinin işğalı və ölkədə baş verən mürəkkəb ictimai-siyasi hadisələr teatr prosesinə, eləcə də repertuara birbaşa təsir etdi;
- Teatr prosesi və repertuarın mövzu, janr və üslub mənzərəsi ilə cəmiyyətdə baş verən ictimai-siyasi, iqtisadi-sosial proseslər adekvat idi;
- 1990-2000-ci illər aralığında teatrların repertuarında xarici dramaturgiya nümunələri azlıq, yerli müəlliflərin əsərləri çoxluq təşkil edirdi;
- Yeni yaranan dövlət və müstəqil teatrlar dövrün tələbi kimi meydana gəldi;
- Dövlət Gənclər, Yuğ, Pantomima, Bakı Marionet, Bakı Kamera, Bakı Bələdiyyə teatrlarının yaranması ilə milli teatr məkanında fərqli mühit formalaşdı və teatr prosesi intensivləşdi;
- Milli teatr təfəkküründə və dramaturgiyada Elçin, K.Abdulla, Ə.Əmirli, F.Mustafa və b. yaradıcılığı timsalında yeni təmayüllər meydana gəldi;
- Azərbaycanın müstəqilliyi bərqərar olunduqdan sonra teatrların xarici festivallarda və qastrol səfərlərində iştirakı, eləcə də ölkədə beynəlxalq teatr tədbirlərinin keçirilməsi sayəsində dünya teatr məkanına inteqrasiya imkanları və meylləri artdı;
- Müasir Azərbaycan dramaturgiyasında yeni imzaların ortaya çıxması repertuarın zənginləşməsində vacib rol oynadı;
- 1992-2015-ci illər aralığında təşkil edilən yerli və beynəlxalq teatr festivalları repertuarın genişlənməsinə böyük təsir göstərdi;
- Bir sıra klassik və müasir xarici dramaturgiya nümunələri

milli repertuarda ilk dəfə yer aldı;

- 2000-ci illərdən etibarən, teatrların repertuarında xarici dramaturgiya nümunələrinin çəkisi və teatr sahəsində beynəlxalq əməkdaşlıq faktları artdı;

- 2000-ci illərdən başlayaraq ölkədə siyasi sabitliyin bərpası, teatr haqqında hüquqi-normativ sənədlərin imzalanması, dünya teatr məkanına inteqrasiyanın sürətlənməsi və s. kimi amillər teatr prosesinin inkişaf dinamikasına müsbət təsir göstərdi.

## Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:

1. Rolun perspektivinin ali məqsədə bağlılığı//- Bakı: ADMİU. Mədəniyyət: Problemlər və Perspektivlər,//- 2015. - s.313.
2. Stanislavski sistemində rolun perspektivinin ali məqsədə bağlılığı problemi // - Bakı: Akademik Elm Həftəliyi Beynəlxalq Multidissiplinar Forum,// - 2015.– s.115-116.
3. Aktyorun əsas vəzifələri//- Bakı: ADMİU. Mədəniyyət: Problemlər və Perspektivlər, // - 2016. - s.95.
4. Teatr sənətində aktyor və tamaşaçı amili//- Bakı:“XXI əsrdə dünya elminin inteqrasiya prosesləri” mövzusunda gənc alim və mütəxəssislərin beynəlxalq forumunun tezisləri,// - 2016. - s.286-287.
5. Müasir Azərbaycan teatrında repertuar və tamaşaçı problemi // - Bakı: AMEA Memarlıq və İncəsənət İnstitutu. İncəsənət və mədəniyyət problemləri, – 2016.№ 4, - s.57-61.
6. Vəsiyyətsiz ölmək qadağandır!//– Bakı: Memarlıq, şəhərsalma tarixi və bərpası, - 2017. № 2, - s.180-186.
7. Müstəqilliyin ilk illərində Azərbaycan teatr prosesi// - Bakı: AMEA Gənc Alim və Mütəxəssislər Şurası. Gənc Tədqiqatçı. VI, - 2020. № 2, - s.97-100.
8. Teatr prosesinin inkişafında festivalların rolu // - Bakı: Musiqi Dünyası Beynəlxalq jurnal, - 2021. № 2/87, - s.50-54.
9. Роль театров возникших в Азербайджане в годы независимости в развитии сценического искусства // - Bakı:

AMEA Memarlıq və İncəsənət İnstitutu. İncəsənət və mədəniyyət problemləri. Beynəlxalq Elmi Jurnal, - 2022. №3, - s.97-107.

10. Xarici dramaturgiya dünya teatrına inteqrasiyanın amili kimi. 09 noyabr 2022-ci il tarixində T.K.Jurgenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasının "Qloballaşma dövründə teatr sənətinin aktual problemləri" mövzusunda keçirdiyi Beynəlxalq elmi-praktiki konfransın materialları. – Almatı: 2022. PDF, - s.178-186.

11. Русская драматургия на азербайджанской сцене в период независимости: анализ творческих тенденций// Наследиевеков, - 2022. № 4, - s.72-80.

12. Müstəqillik dövrü Azərbaycan teatrında repertuar və tamaşaçı problemi. // - Bakı: Konfrans materialı // Elmi iş. Beynəlxalq elmi jurnal. XXI Respublika Elmi Qaynaqlar Konfransının Materialları, - 2023. 27 mart - s.27-29.

13. Heydər Əliyevin milli teatrın inkişafında rolu. - Bakı:"Heydər Əliyevin dövlətçilik idealları və müasir gənclik" mövzusunda respublika konfransının materialları, "Elm", - 2023. - 244 s. s. 65-69.

14. Müstəqillik illəri Azərbaycan teatrında tarixi şəxsiyyətlərin səhnə təcəssümü. – Bakı:UKSEK – 6. UluslararasıKültür, Sanat veEdebiyat konqresi. – 2023.20 noyabr, 305 s. s. 258-261.

Dissertasiyanın müdafiəsi _18_ _oktyabr_ 2024-cü il tarixində saat _12<sup>00</sup>_ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1065, İnşaatçılar prospekti, 39.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-informasiya mərkəzində tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _12_ _sentyabr_ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.09.2024
Kağızın formatı: A5
Həcm: 39818
Tiraj: 100